# Odessadan dünya çempionu kimi qayıtdı

...Axşamdan xeyli keçmişdi. Azərbaycan televiziyasında "Xəbərlər" proqramı yeni başlamışdı.

Afət mavi ekranda ölkəmizin sosial-iqtisadi inkişafını əks etdirən maraqlı verilişləri maraqla izləyir, həyat yoldaşı Pərvanə ana isə oğlu Orxanın idmanla bağlı ayrı-ayrı illərdə çəkdirdiyi növ-növ şəkilləri nəzərdən keçirir, hərdən isə xəyala dalaraq düşünürdü:

—Görəsən sevimli balam Orxan Ukraynanın Odessa şəhərindən dünya çempionatından hansı nəticələrlə qayıdacaq, öz uğuru ilə bizi yenə sevindirə biləcəkmi?

Xeyli keçmişdi ki, Pərvanə xanımın mobil telefonuna zəng gəldi. Nömrə anaya tanış idi. Çox intizarla telefona cavab verdi:

—Eşidirəm oğlum, eşidirəm. Orxan, səsin yaxşı gəlir. Yəqin ki, dünya çempionatında Azərbaycan idmanının şərəfini ləyaqətlə qoruyub saxlamısan?

—Elədir, əziz anam, elədir. Xoş xəbərim var, Odessa şəhərində karate üzrə dünya çempionu adına layiq görüldüm. Buradakı diaspor fəalları mənə qucaq-qucaq gül dəstələri bağışladılar - deyə Orxan qəlbindən süzülüb gələn xoş sözləri valideynləri ilə bölüşdü.

Afət ata, Pərvanə ana aylı bir gecədə fərəhdən özlərini sanki göylərin yeddi qatında hiss etdilər. Bu xoş xəbəri bir saatın içərisində kimlərə çatdırmadı onlar. İlk zəng ata-baba yurdları Naxçıvana edildi, daha sonra isə Bakı şəhərində kimlərə deyilmədi ki?

Hamı təbriklərə qoşuldu. Daha çox sevinən Orxanın iş yoldaşları, idmançı dostları oldu.

Dünya çempionu Orxan Süleymanov iki gün sonra Kiyev şəhərindən onun görüşünə gələn Ukrayna Azərbaycanlıları Konqresinin sədri Rövşən Tağıyev, Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa dövlətləri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlu və digər soydaşlarımızın xeyir-duası ilə təyyarə ilə Bakı şəhərinə yola düşdü.

Azərbaycan bayrağını dünya çempionatında dalğalandıran, Vətənə uğurlu nəticə ilə dönən Orxanı Heydər Əliyev adına hava limanında onun doğmaları, dostları, həmçinin Bakı Sərnişin və Yük Daşımaları MMC-nin əməkdaşları qarşılayırdı.

Karate üzrə dünya çempionu Orxan Süleymanov doğma vətəndə mehribanlıqla, yüksək əhval-ruhiyyə ilə qarşılandı. Neçələri qalib idmançını bağrına basdı, Pərvanə ananın isə sevincindən gözləri yaşarmışdı.

Orxan Bakıya gəldikdən bir gün sonra biz onunla telefon əlaqəsi yaratdıq. İş yerində bir axşamçağı dünya çempionu ilə görüş təyin etdik.

İlk müsahibimiz Bakı Sərnişin və Yük Daşımaları MMC-nin baş direktoru Ziya Bünyadzadə oldu. O, başçılıq etdiyi kollektivdə dünyaşöhrətli idmançının çalışmasından, Odessadan Vətənə dünya çempionu kimi dönməsindən məmnun qaldığını bildirdi.

Biz Orxan Süleymanovla iş otağında üzbəüz əyləşib onunla şirin söhbətə başladıq, 30 yaşlı gəncin ömür kitabını vərəqlədik...

Orxan Bakının Nərimanov rayonundakı 258 nömrəli orta məktəbin məzunudur. O, on bir yaşında ikən idmanla məşğul olmuş, rayon və respublika məktəbliləri arasında keçirilən yarışlarda qalib tanınmış, tərifnamə və diplomlara layiq görülmüşdür.

Orta təhsilini başa vurduqdan sonra Orxan Süleymanov Bakı İqtisadiyyat Universitetinin beynəlxalq iqtisadi münasibətlər fakültəsinə daxil olmuş, tələbəlik illərində karate üzrə dünya və Avropa çempionu və mükafatçısı olmuşdur.

Orxan 2004-cü ildə ulu öndərimiz dahi şəxsiyyət Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnirin qalibi olmuşdur.

Orxan Süleymanov 8 qat Azərbaycan çempionu, MDB ölkələrində keçirilən yarışların qalibi, 2009-cu ildə Prezident kubokunun sahibi, 4 qat Avropa çempionu, 3 qat dünya çempionu, 2 dəfə dünya kubokunun sahibi, Avropa və dünya birinciliyinin mükafatçısı olmuşdur.

Bu günlərdə Orxan Ukraynanın Odessa şəhərində keçirilən karate üzrə VIII Dünya Kubokunda iştirak etmiş, öz peşəkarlığını bir daha nümayiş etdirmiş, İran, Rumıniya, Ukrayna idmançılarını məğlubiyyətə uğratmış, fəxri kürsünün ən yüksək pilləsinə qalxmış və karate üzrə dünya çempionu olmuşdur.

Son olaraq dünya çempionuna belə bir sualla müraciət etdik:

—Siz yarışlarda hansı hisslər keçirirdiniz, yəqin ki, narahat anları yaşayırdınız?

Orxanın konkret cavabı bu oldu:

—Gözlərim önündə hər an doğma Vətənim Azərbaycan, I Avropa Oyunlarında möhtərəm Prezidentimiz İlham Əliyevin, Təşkilat Komitəsinin



sədri Mehriban Əliyevanın yarışlarda ikinci yeri tutmuş Azərbaycan idmançılarına medalların təntənəli qaydada təqdim olunması mərasimləri canlandı...

Karate üzrə dünya çempionu Orxan Süleymanov hazırda Bakı Sərnişin və Yük Daşımaları MMC-də təhlükəsizlik bölməsinin rəisidir. Söhbət əsnasında o, vurğuladı ki, Azərbaycan idmanının şərəfini ləyaqətlə qoruyacaq, qarşıdakı Avropa və dünya çempionatlarında yenə də fəxri kürsünün ən yüksək pilləsinə qalxacaqdır...

**Qədir ASLAN,**
**"Respublika".**